**Ağayev Emil Raul oğlu**
Azərbaycan Dövlət Rəssamlıq Akademiyası
emilaghayev93@mail.ru

# XALİDƏ SƏFƏROVA YARADICILIĞINDA MƏNZƏRƏ JANRI

***Açar sözlər***: *Xalidə Səfərova, janr, mənzərə, impressionizm*
***Key words***: *Khalida Safarova, genre, landscape, impressionism*
***Ключевые слова***: *Халида Сафарова, жанр, пейзаж, импрессионизм*

Təsviri incəsənət tarixinə nəzər yetirsək,1669-cu ildə Fransa Kral Akademiyasının memar və rəssamı Andre Filibyen klassik janrlar nəzəriyyəsini formalaşdırır.Onun nəzəriyyəsinə görə kiçik janrlardan biridə mənzərədir.Elə rəssam tapılmazki mənzərə janrına müraciət etməsin,Xalidə Səfərovada(1926-2005) məhz öz yaradıcılığında mənzərəyə aid müxtəlif əsərlər yaratmışdır.

Xalidə Ələkbər qızı Səfərova 1926-cı ildə Gəncə şəhərində dünyaya göz açıb.Uşaqlıqdan rəsmə böyük həvəsi olmuş və yaratmaq istəyi onu heç zaman tərk etməmişdir.Getdikcə alovlanan bu arzu artıq yetkinlik dövrünə qədəm basmış Xalidənin 1941-ci ildə Gəncədən Bakıya gəlməsinə və peşəkar təhsil almaq məqsədi ilə Bakı rəssamlıq məktəbinə daxil olmasına səbəb oldu.Böyük Vətən müharibəsinin vurduğu yaralardan doğan kədər,sıxıntılar,daha sonra isə valideynlərinin repressiyalara məruz qalmasının səbəbi,bu əlbəttə çətin idi.Ona bu çətin vaxtlarda kömək edən həyat yoldaşı tanınmış rəssam Mahmud Tağıyev oldu.Xalidə Səfərova öz yaradıcılığında çoxlu sayda kənd, zəhmətkeşlərin, fəhlə, neftçi, klassik əsərlərimizin obrazlarını, mənzərə, natürmort və idman mövzusunda bir-birindən maraqlı əsərlər yaratmışdır. Mahmud Tağıyev və Xalidə Səfərova 1949-cu ildə Moskvada Ümumittifaq Kinematoqrafiya institutunun rəssamlıq fakültəsinə daxil olurlar. İstedadlı pedaqoq Y.İ.Pimenovun məktəbində təhsil alan Xalidə öz dəst-xəttini formalaşdırdı.Nizami Gəncəvinin əsərləri mövzusunda uğurla diplom işi müdafiə etdi, hətta bu əsər SSRİ Rəssamlıq Akademiyasının salonlarında təşkil edilmiş sərgilərdə nümayiş etdirilmişdi.

"Sərbəstlik"(1980) (Şəkil1) əsərində Bakının ümumi mənzərəsi təsvir edilmişdi. Rəssam kompozisiyada mavi rəngin tam formasından istifadə edərək, işıq-kölgə, ağ rəngin uyğunlaşmasını həll etmişdi. Əsərdə göyərçinlərdən simvolik olaraq istifadə edən rəssam əsərin adını buna görə də belə adlandırmışdı.



**1."Sərbəstlik"(Kətan,yağlı boya)**

"Bizim dağlar" Xalidə Səfərovanın təsvir etdiyi dağlarda sanki əzəmətlilik deyil, gözəllik, təbiətin rəngarəngliyi tam olaraq canlandırılmışdı. Rəssamın mənzərələrinə fikir versək, impressionist rəssamların texnikalarını duya bilərik, bu da səbəbsiz deyil, onun müəllimi Y.İ.Pimenov məhs impressionist ruhlu böyük rəssam idi. "Göldə səhər" və "Gəmilər dənizdə" karton üzərində yağlı boya ilə təsvir etdiyi əsərlərində isə qəmginlik, tənhalıq hissi duyulur. Rənglərin soyuqluğu, rəssamın keçirdiyi hisslər sanki bu mənzərələrdə

hiss olunur. Dənizin günün müxtəlif vaxtlarında verilməsi, simvolikanın, mazokların, rəng qatlarının, refleksin təsvir edilməsi bu iki əsərin ümumi xüsusiyyəti kimi qeyd edilməlidir.

Xalidə Səfərova öz mənzərələrində payız fəslinin təsvirinə geniş yer ayırmışdı. "Parkda payız" əsərində sulu boya ilə qızılı rəngin və sarımtıl işığın bir-birinə ahəngindən istifadə edilmişdi. "Payız" əsərində isə bu fəslin ən sevimli meyvələrini yığan xanımlar təsvir olunmuşdu. Ön planda meyvələrin təsviri diqqəti məhz bu hissəyə cəlb edir. Məkan həlli, işıq və kölgənin, soyuq və isti rənglərin sintezi fəsil haqqında tamaşaçının gözü qarşısında canlandırılan bir mənzərə yaratmışdı. "Qızıl payız" (1987) və "Üzüm yığımı" (1987) hər iki mənzərədə xanımların geyimlərindəki əlvanlığı, koloritliliyi, dinamikanı və xüsusilə də rəssamın öz texnikasını aydın duya bilərik. "Günəşli diyar" (Şəkil2) və "Ceyranlar"- bu əsərlərdə simvolik olaraq qaranquşun və ceyranın təsviri mənzərədə yaz fəslinin xüsusiyyətləri kimi qeyd edilməlidir.



**2."Günəşli diyar (kətan,yağlı boya)**

Xalidə Səfərova yaradıcılığında mənzərə janrında xüsusilə doğma vətənin gözəllikləri canlandırılmışdı. Öz yaradıcılığına xas olan xüsusiyyətləri xüsusilə, impressionistlərin texnikalarını rəssamın mənzərələrində aydın hiss edə bilərik.

**Ədəbiyyat:**

1.X.Əsədova "Xalidə səfərova" Şərq-Qərb.Sərvət 2013,104 s
2.Ş.Məlikova "Xalidə Səfərova və Mahmud Tağıyev" Xalq Bank 2011,335 s

**The landscape genre of Khalida Safarova's creativity**

**Summary**

One of the genres that occupies an important place in the fine arts of Azerbaijan is the landscape. The works of Khalida Safarov in the field of landscape are felt in the works of national and European traditions.

**Жанр пейзажа в творчестве Халиды Сафаровой**

**Резюме**

Одним из жанров, занимающих важное место в изобразительном искусстве Азербайджана, является пейзаж. Произведения Халиды Сафаровой в области пейзажа ощущаются в произведениях национальных и европейских традиций.

**Rəyçi: s.f.d. A.Xəlilov**